2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikası Milli Məclisinə seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Ramiz İbrahimovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 12 fevral 2020-ci il tarixli, 115 saylı müraciət üzrə

**RƏYİ**

Bakı şəhəri                                        15 fevral 2020-ci il

Mən, ekspert qrupunun üzvü Ramiz İbrahimov 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikası Milli Məclisinə seçkilərdə 34 saylı Xətai ikinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Baxışov Qəzənfər İsamməd oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 12 fevral 2020-ci il tarixli 115 saylı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq tərəfimdən nəzərdən keçirilərək aidiyyət qaydalarının pozulması ilə daxil olduğu müəyyən edilmişdir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112.2, 112-1.12-ci maddələrinə və yuxarıda göstərilən Təlimatın 8.6-cı bəndinə uyğun olaraq şikayət və ya müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı, 7-ci və 8-ci bəndlərinə əsasən **rəyə gəldim:**

1. 34 saylı Xətai ikinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Baxışov Qəzənfər İsamməd oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 12 fevral 2020-ci il tarixli 115 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü                                        Ramiz İbrahimov